*Elm ocağı - kitabxanadır*

# Svetlana xanımın işıqlı sabahları

**Sumqayıt gözlərimiz qarşısında pillə-pillə inkişaf edib, yüksəlib, az bir zaman kəsiyində dillər əzbəri olub. Doğma şəhərimiz haqqında mahnılar bəstələnib, poemalar, kitablar yazılıb, dastanlar qoşulub, əfsanələr yaradılıb. Çünki burada çalışan hər bir zəhmətkeş insanın qabarlı, lakin şərəfli əllərinin izləri görünür, məhz ona buna görə də əməkləri yüksək qiymətləndirilib. Şan-şöhrətə çatmaq, özünə məxsus adət-ənənəsi olan bir diyarda yaşamaq bir xoşbəxtlikdir.**

Bu xoşbəxtliyi, xoş- əhval-ruhiyyəni, dostluğu, mehribançılığı yaradan, iftixar hissi ilə demək olar ki, məhz nəcib, xoşməramlı sumqayıtlılardır. Sumqayıtın qurucularından danışında adətən şəhərin, zavod və müəssisələrin, tikinti trestlərin rəhbərlərinin adları çəkilir.

Bunlara etiraz etmək düzgün olmazdı. Sumqayıtın inkişafında onların danılmaz gərgin əməyi və böyük zəhməti vardır. Bununla yanaşı, doğma şəhərimizin mədəniyyət, səhiyyə, idman, təhsil ocaqlarında çalışan insanların qazandıqları nailiyyətlərdən çox danışmaq istəmirəm. Bu gün Sumqayıt Qərbə inteqrasiya etmuiş, dünyada tanınmış iri sənaye və mədəni bir şəhərə çevrilmişdir.

Bu inkişaf yolunda ömrünün 45 ilini bir peşəyə həsr etmiş əvəzolunmaz insan haqqında danışmaq istəyirəm. Bu, Svetlana xanım Ağayevadır. Onun vəzifəsi insanları elmə, mütaliəyə, biliyə, kitaba, savada alışdırmaq, bu yolda həmkarları ilə birlikdə əllərindən gələni etməkdə həmişə hazır olmuş və mədəni xidmətin keşiyində layiqincə dayanmışlar.

Svetlana xanım Səməd Vurğun adına Sumqayıt Mərkəzləşdirilmiş Kitabxana sisteminin dediyimiz kimi, 45 il direktoru olub.

Onunla həmsöhbət olanda ilk sualım elə bu oldu.

**-Svetlana xanım, 45 il siz yormadı?**

-Qətiyyən. Mən sənətimin vurğunu idim. İndi təqaüddəyəm. Amma ürəyimin bir parası yenə də kitabxana ilə döyünür. İnanmazsınız yuxularımda kitabxananı, oxucuları, kitab rəflərini, maraqlı görüşləri tez-tez görürəm.

**-Görüşlər haqqında dediniz, yadda qalan qonaqlarınız kim olub?**

-Xəlil Rza Ulutürk, Mirvarid Dilbazi, Mir Cəlal, Bəxtiyar Vavabzadə, Rəsul Rza, Qabil, Nəriman Həsənzadə və başqaları. Onu da deyim ki, görüşlərin əksəriyyətini qəza nəticəsində, 37 yaşında dünyasını dəyişmiş sumqayıtlı gənc şair Vaqif İbrahim təşkil edirdi.

Svetlana Ağayrva 1962-ci ildə Azərbaycan Dövlət Universitetinin şərqşünaslıq fakultəsinin kitabxanaçılıq bölməsini bitirib. Təyinatını Sumqayıta alıb, oni Azərbaycan (əvvəllər Lenin küçəsi adlanırdı - müəllif) prospekti ilə Nərimanov prospektinin kəsişdiyi yerdə yerləşən kitabxananın müdiri vəzifəsinə təyin edirlər. 1960-cı illər və 1970-ci illərin əvvəllərinə qədər kitabxanalar müstəqil fəaliyyət göstərirdi.

1973-cü ildə Sovet İttifaqı Kommunist Partiyasının katibi, Siyasi Büronun üzvü P.N.Demiçevi SSRİ Mədəniyyət naziri təyin etdilər. O, ölkədə olan kitabxanaların mərkəzləşdirilmiş sisteminə keçidi haqqında kollegiyanın qərarını qıbul etdi. Bu qərara əsasən bütün ölkədə yeni sistemə keçidlərlə bağlı maddi, texniki, təşkilatı məsələlər həll olunmağa başlanıldı. 1974-cü il, iyul ayının 1-də Sumqayıtda artıq Səməd Vurğun adına Mərkəzləşdirilmiş kitabxanalar sistemi formalaşdı və Svetla xanım Ağayeva onun rəhbəri oldu.

**-Svetlana xanım, ilk illər yəqin ki, çətin olardı, eləmi?**

-Elədir. 9 filial mərkəzi kitabxanaya birləşdi. İşçilərin sayı siz deyən çox da deyildi. Yeni sistemin iş fəaliyyəti olduqca geniş, əhatəli, o cümlədən çətin idi. Müxtəlif şöbələr yaradılmağa başlanıldı, onları sadalamaq istəmirəm. Həmin şöbələrə təcrübəli kadrlar tələb olunurdu. Demək istəmirəm ki, kimdənsə şikayətim olub. Xeyr. Gəncləri təcrübəli kadrların himayəsinə verirdim. İşdə məsuliyyət və tələbkarlıq olmasaydı, biz uğurlar əldə edə bilməz, kitabxanalarımız başqalarından seçilməzdi.

Mərkəzləşdirilmiş kitabxana sisteminə tabe olan filiallarının müdirlərinin hamısı ilə, o çümlədən aparıcı kadrlarla söhbətim olub. Onlar qeyd edirdilər ki, Svetlana xanımın işdə iki əsas tezisi vardı. Məsuliyyət və nizam-intizam.

Sözsüz məsuliyyət olmayan yerdə nailiyyət də olmaz, uğur da. Məhz Svetlana xanımın tələbkarlığı kitabxana işçilərinin peşələrinə sadiqliyini, vurğunluğunu, oxucularla ünsiyyətdə mədəni və diqqətcil olmalarını təmin edirdi. Öz işçilərindən narazı deyildi. Onunla çalışan Ulduz Namazova, İster Şamayayeva, Nazxanım Cəfərova, Anna Frolova, Gülüstan Babayeva, Məryəm İsmayılova, Gülzar Xaşalova, Qənirə Qaraşova, Tamilla Xudaverdiyeva, Qalina Xəlilova, Nuricət Zülfüqarova və başqaları demək olar ki, kitabxana işini dərindən bilirdilər, hər bir yeniliyin tərəfdarı olurdular.



Maraqlı məqamlardan biri də bu idi ki, 1944-cü ildə Leninqradda "Uşaq və gənclər kitab həftəsi" adlı irimiqyaslı tədbir keçirilmişdir.

Respublikada da bu mövzuya ciddi əhəmiyyət verilirdi. Sumqayıt şəhər mərkəzləşdirilmiş kitabxana sistemi hər il ənənəvi olaraq "Uşaq və gənclər kitab həftəsi" adlı geniş miqyasda tədbir keçirməyə başladılar Bu tədbir uşaqların, yeniyetmələrin kitaba olan marağını, ideya-siyasi tərbiyəsində vacib rol oynadığını nəzərə alaraq, kitabxanalar məktəblərlə, orta-texniki tədris müəssisələri ilə birgə ümumşəhər tədbirləri keçirirdi. Bunun da özünün böyük səmərəsi olurdu.

Svetlana xanım keçirdiyi tədbirlərdə təkcə məktəblərlə kifayətlənmirdi. Müxtəlif tədbir və görüşlər Azərbaycan Yazıçılar Birliyinin Sumqayıt bölməsi, Əli Kərim adına poeziya evi, İdman və gənclər idarəsi, "Bilik" maarifçilik cəmiyyəti, H.Ərəblinski adına Dövlət Dram Teatrı ilə birgə müştərək şəkildə keçirilirdi.

Ən yadda qalan tədbirlər "Xocalı - ağır dərdim", "Erməni fitvası, Sumqayıt tələsi", "Əsrə bərabər gecə", "Ana dili - hikmət xəzinəsi""Ordun varsa, yurdun var" və sair tədbirlər tamaşaçılar tərəfindən alqışlarla qarşılanmışdır.

**-Svetlana xanım əsas təlimatları haradan alırdınız?**

-Moskvadan. Sonra Azərbaycan Mədəniyyət Nazirliyi onları bizə göndərirdi. Biz də ona uyğun aylıq, rüblük, illik planımızı tuturduq. İlin yekununda isə hesabat verirdik.

Sumqayıt kitabxanalarının işçilərini bir neçə dəfə öz sənətlərinin fədailəri adlandırmışam, indi də sözümün üstündə dururam. Yuxarıda qeyd etdiyim kimi, belə fədailərdən biri də Svetlana Ağayevadır.

1960-2000 -ci illərdə Sumqayıt ictimaiyyəti, ziyalıları, ədəbi mühit bu xanımı çox yaxşı tanıyırdılar. O, məsuliyyətli, tələblar, prinsipilal və səmimi bir kadr kimi şəhərdə böyük hörmət qazanmışdır. Sumqayıtın elə bir mədəni-kütləvi tədbiri olmazdı ki, Svetlana xanımın rəhbərlik etdiyi kitabxanalar sistemi orada iştirak etməsin. Bunu indi də kitabxanada çalışanlar çox həvəslə qeyd edirlər. Yaşlı və orta nəslin nümayəndələri ilə dəfələrlə söhbətim olub. Hamısı bildiriblər ki, ali təhsil alsaq da, kitabxana sisteminin iş uslubunu, incəliklərini, onun ideologiyasını bizə Svetlana xanım öyrədib və biz ömrümüzün sonuna qədər ona minnətdarıq.

Svetlana xanımın əməyi yüksək dairələrdə həmişə qiymətləndirilirdi. SSRİ Mədəniyyət naziri Y.Furtseva S.Ağayevanın əmək fəaliyyətində göstərdiyi yüksək nailiyyətlərinə görə Fəxri Fərmanla təltif etmişdir. Bundan başqa Svetlana xanım SSRİ Mədəniyyət İşçiləri Həmkarlar Təşkilatı Mərkəzi Komitəsinin sədrinin, Azərbaycan Mədəniyyət nazirliyinin Fəxri Diplomlarına da layiq görülmüşdür. Nailiyyətlər təkcə bununla kifayətlənmirdi.

1977-ci ildə Mərkəzləşdirilmiş kitabxana sisteminin yaxşı əmək fəaliyyətinə görə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin və Nazirlər Sovetinin keçici Qırmızı Bayrağına layiq görülmüşlər. Həmçinin SSRİ Xalq Təsərrüfatları Nailiyyətləri Sərgisinin üçüncü dərəcəli diplomu ilə təltif olunmuşlar.

Svetlana həyatda, işdə prinsipial xanım idi. Şəhər xalq deputatları sovetinin deputatı idi. Haqqı nahaqqın ayağına heç bir vaxt verməzdi. Təkcə kitabxanaçıların deyil, başqa mədəniyyət ocaqlarının təəssübkeşi idi.

Bir faktı qeyd etmək yerinə düşərdi. Sumqayıtda "Gənclik" klubu fəaliyyət göstərirdi. Müdiri Solmaz xanım idi. Klubun qarşısı həmişə natəmiz, zibilliklərlə dolu, kiçik budklarda xırda mallar satılmaqla qanunsuz alver təşkil edilmişdi. Yerdə də siqaret kötüklərindən tərpənmək olmurdu. Bu məsələ dəfələrlə qaldırılsa da, ona ciddi əhəmiyyət verən yox idi. Svetlana xanım bir deputat kimi, bu məsələni sessiyada qaldırdı, kəskin çıxışı ilə bir çox rəhbər işçiləri silkələdi. Mədəniyyət evinin qarşısının belə bərbəd hala salınmasını mədəniyyət işçilərinə qarşı təhqir saydı.

Ertəsi günü şəhər partiya komitəsinin ikinci katibi S.Salmanov onu kabinetə çağırıb, dünənki çıxışına görə, tənqid etmək istəyəndə Svetlana xanım onun sözünü kəsib deyir: - Məni danlayınca epideomologiya və gigiyena idarəsinin rəhbərliyini dəvət edib, onları danlaylın ki, mədəniyyət oçağının qarşısını təmiz saxlasınlar, - deyib kabiheti tərk etdi. Həmin günün axşamı şəhər mədəniyyət şöbəsinin müdiri Zərifə Təhməzova Svetlana xanımı yanına dəvət edib, deyir ki, katib göstəriş verdi ki, səni işdən azad edim.

Svetlana xanım Z.Təhməzovaya deyir:

-Siz razısınız, mən işdən çıxım?

-Xeyir. Neçə illərdir ki, bir yerdə çalışırıq. Səndən yaxşı kadr hardan tapım.

-Onda katib məni tənqidi çıxışıma görə yox, gəlib kitabxana işimi yoxlatdırsın, əgər ciddi nöqsan taparsa, ərizəmi yazıb işdən çıxaram.

Katib cürət edib bunu edə bilmədi. Çünki Sumqayıt mərkəzləşdirilmiş kitabxana sistemi Respublikada birincilər sırasında idi. Hətta yeni sistemə keçəndə Azərbaycanın bir çox regionları, o cümlədən Bakının rayonlarının kitabxanaları Sumqayıta gələrək təcrübə mübadiləsi aparırdılar.

Svetlana xanım heç bir vaxt vəzifəpərəst olmayıb. Çünki sənətinin vurğunu idi. Bir gün şəhər partiya komitəsinin büro iclasında Sumqayıt mədəniyyət şöbəsinin məsələsi müzakirə olunurdu. Müzakirə səbəbsiz deyildi. Rəhbərlik Z.Təhməzovanı işdən azad etmək istəyirdi. Zərifə xanım isə işində mahir, işgüzar, bacarıqlı təşkilatçı və tələbkar qadın idi. İnsanlara qarşı isə həmişə mehriban və səmimi olub. Bunun dəfələrlə şahidi olmuşduq.

Büro iclasında ona verilən haqlı-haqsız suallara mərdi-mərdanə cavab verdi. Sonda da qeyd etdi ki, əgər məni işdən azad etmək fikriniz varsa bunu açıq söyləyin. Ərizəmi yazıb işdən çıxaram. Hamı susdu.

Üstündən bir neçə gün keçmişdi ki, məni şəhər partiya komitəsinə dəfət etdilər. Mədəniyyət şöbəsinin müdiri Zərifə xanım haqqında söhbət etdilər və son nəticədə mənə müraciətlə dedilər ki, biz istəyirik, sizi mədəniyyət şöbəsinin müdiri təyin edək. Mən fikirləşmədən dedim ki, əgər ayrı vəzifə təklif etsəydiniz, gedərdim, amma Zərifə xanımın yerinə gedə bilmərəm, həm də öz sənətimi sevən adamam, mənim yerim kitabxanadır. Düzü bu sözü məndən gözləmirdilər. Açığını bildirim ki, həmin yerə göz dikənlər çox idi. Lakin savad, bilik, təcrübə imkan vermirdi ki, böyük bir şöbəyə rəhbərlik etsinlər. Mədəniyyət şöbəsinin yükü ağır idi. Z.Təhməzova da bu yükün altından heç bir vaxt qaçmayıb, əksinə, onu layiqincə daşıyıb və Sumqayıt mədəniyyətinin adını həmişə yüksəklərə qaldırıb.

-Bir misalı da oxucuların diqqətinə çatdırmaq istəyirəm, - deyə Svetlana xanım söhbətinə başladı: - 1980-ci illərin əvvəlləri idi. Zərifə xanım Sumqayıtda "Mədəni İdman Kompleksi" ideyası ilə çıxış etdi. İdeyanın əsas məqsədi nə idi? Sumqayıtlıları şəhərin tarixi ilə tanış etmək, gənclərin təlim-tərbiyəsini gücləndirmək, yeniyetmələri kitabxanalara cəlb etmək, uşaq idman məktəblərinin bazasını gücləndirmək, neqativ hallara qarşı ümumilikdə, hüquq-mühafizə orqanları ilə birlikdə mübarizə aparmaq və s. İllik plan tutuldu. Demək olar ki, şəhərdə hər həftə bir-birindın maraqlı tədbirlər keçirilirdi. Bakıdan Azkonsertdən Sumqayıta artistlər, müğənnilər gəlirdi. Yadımda qalanları sadalamaq istərdim.

Müğənnilərdən Şövkət Ələkpərova, Elmira Rəhimova, Əlibaba Məmmədov, Zaur Rzayev, Flora Kərimova, Hüseynağa Hadıyev və başqaları. Azdramanın kollektivi Səməd Vurğun adına mədəniyyət sarayında İlyas Əfəndiyevin "Mahnı dağlarda qaldı", "Büllur sarayda" tamaşaları göstərildi.

Digər məsəniyyət saraylarında, orta məktəblərdə, kitabxanalarda Məmməd Arazla, Hüseyn Abbaszafə ilə, Anarla, Nüsrət Kəsəmənli ilə, Sabir Rüstəmxanlı ilə, Tofiq Bayramla, Cabir Novruzla, artistlərdən Amalya Pənahova ilə, Rasim Balayevlə, Yaşar Nuru ilə, Firəngiz Mütəllimova ilə görüşlər keçirilirdi. Görüşlərin sayı-hesabı yox idi. İl ərzində görülən işlər Mədəniyyət Nazirliyi tərəfindən bəyənildi, sonra görülən işlər balaca kitabça şəklində çap olundu. Sumqayıtın bu iş təcrübəsi Moskvaya da çatdı.

Zərifə Təhməzova Moskvada SSRİ Mədəniyyət Nazirliyinin məhz "Mədəniyyət İdman Komleksi"nə həsr olunmuş kollegiya iclasında çıxış etdi, onunla fikir mübadiləsi apardılar, çoxlu suallar verdilər, müsbət də cavab aldılar. Mədəniyyət naziri P.Demiçev bu işi bəyəndi və onu bütün SSRİ-də yayılması haqqında gollegiyanın qərarını verilməsini tövsiyə etdi. SSRİ - də bu təcrübəni ilk dəfə Pribaltika respublikalarından biri başladı. Bax belə. Sumqayıt mədəniyyət şöbəsinin bir qolu olan kitabxana da bu tədbirlərdə fəal iştirak edirdi. İnanmazsınız, hər həftə irimiqyaslı tədbirlərdə iştirak etmək nə qədər çətin idi. Lakin işimiz yüksək dairələrdə qiymətləndiriləndə əməyimizin ağırlığını bir o qədər də hiss etmirdik, sevinirdik ki, bizim gördüklərimiz bütün SSRİ-də təbliğ olunur. Bu nədən irəli gəlirdi? Doğma şəhərə olan məhəbbətdən, seçdiyin peşəyə olan sevgidən irəli gəlirdi.

İllər ötür, xatirələr çözələnir. Svetlana xanımın zəngin xatirələri var. Ax o, Sumqayıt şəhər mərkəzləşdirilmiş sistemin uzun illər direktoru olmuş, onlarla gənc kadr yetişdirmiş, onlara analıq qayğısı göstərmişdir. Şəhər sovetinin bir deputatı kimi Sumqayıt ictimaiyyəti arasında böyük nüfuz sahibi idi. Tribunadan etdiyi obyektiv, ədalətli çıxışları bəzi bürokrat rəhbərlərin xoşuna gəlməsə də, zalda oturanların üreyindən xəbər verirdi, bu qadına olan hörmət-izzətləri artırdı. O, hamını təmiz, xeyirxah, səmimi görmək, Sumqayıtın inkişafında yeni nəslin elmin gücündən istifadə olunmasını arzulayırdı.

**Svetlana xanım Sumqayıtı sabahın şəhəri adlandırır. Biz də ondan ayrılarkən öz ürək sözümüzü ona dedik: Hər gün açılan sabahlar sizin üzünüzə şəfəq salaraq ömrünüzü saqlam və gümrah etdsin.**



**Eyruz MƏMMƏDOV,**
**Respublikanın "Əməkdar jurnalisti"**